# Məqsədimiz bilikli və bacarıqlı gənclər yetişdirməkdir



**Müstəqillik yolunda addımlayan Azərbaycanın inkişafında təhsil önəmli yer tutur. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi, "Təhsil Azərbaycanın davamlı strategiyasının ən önəmli istiqamətlərindən biridir. Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır.**

Ölkə Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası" haqqında sərəncamı təhsil əsri elan edilən XXI əsrin çağırışına layiqli cavab olmaqla yanaşı, ulu öndərimiz Heydər Əliyevin ölkəmizin təhsil sahəsində düşünülmüş və gələcəyə ünvanlanmış islahatların sistemli şəkildə aparılması ideyasına sadiqliyin parlaq təcəssümüdür.

Azərbaycan təhsilinin inkişafında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əməyi danılmazdır. Onun rəhbərliyi altında fond tərəfindən yeni məktəblərin tikilməsi, infrastrukturunun yeniləşdirilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm layihələr həyata keçirilmişdir.

Ölkəmizdə təhsil sahəsində əldə edilən nailiyyətlərdə Zəngilan rayonunun təhsil işçilərinin də əməyi az olmamışdır. Ötən dərs ilində 35 ümumtəhsil məktəbinə 4600 şagird cəlb edilmişdir ki, onların da təlim-tərbiyyəsi ilə 821 müəllim məşğul olmuşdur. Rayonun ümumtəhsil məktəblərində ötən dərs ilində təlim-tərbiyə sahəsində xeyli işlər görülmüş, təlimin keyfiyyəti nəzərəçarpacaq dərəcədə yüksəlmiş, məktəblərin maddi-texniki bazası, kompüterlə təmini və tərtibatı vəziyyəti köklü surətdə yaxşılaşdırılmışdır.

2014-2015-ci dərs ilində rayonun ümumtəhsil məktəblərinin IX siniflərini 415, XI siniflərini isə 391 nəfər bitirib, şəhadətnamə və attestat almışlar.

Rayonun tam orta məktəblərinin XI siniflərini müvəffəqiyyətlə bitirmiş məzunlardan 304 nəfəri ali məktəbə sənəd vermiş, sənəd verənlərin 205 nəfəri ali məktəblərə qəbul olunmuşdur. Onlardan 31 nəfəri 500-600 arası, 11 nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Rayon üzrə qəbul olunan məzunlar, sənəd verən məzunların 67,43 faizini təşkil etmişdir. Rayon üzrə ən yüksək balı 28 nömrəli orta məktəbin məzunu Murad Süleymanov – 690 bal və 15 nömrəli tam orta məktəbin məzunu Cabbar Cabbarov – 680 bal toplamışdır. M.Süleymanov Prezident təqaüdünə layiq görülmüşdür.

Dərs ili ərzində məktəblərdə təlim və bu sahədə görülən işlər mütəmadi olaraq rayon icra hakimiyyətinin başçısı Ramiz Həsənovun diqqət mərkəzində saxlanılmış, təlim-tərbiyə səviyyəsinin yüksəldilməsi üçün öz dəyərli tövsiyələrini və məsləhətlərini vermişdir.

Ötən tədris ilində məktəbdənkənar müəssisələrin fəaliyyətində də xeyli irəliləyişlər olmuş, idmançılarımız respublikada keçirilən mötəbər yarışlarda müvəffəqiyyətlə çıxış etmişlər.

Ötən tədris ilində ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə geniş tədbirlər planı işlənib həyata keçirilmiş, müxtəlif formalarda məruzə və mühazirələr dinlənilmiş, VIII-XI sinif şagirdləri arasında Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş inşa yazı müsabiqəsi keçirilmişdir. 33 nömrəli tam orta məktəbin IX sinif şagirdi Talıbova Şəbnəm Sərdar qızı mükafata layiq yer tutmuşdur. Ümummilli lider Heydər Əliyevin 92-ci ildönümü ilə əlaqədar rayonun ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin Heydər Əliyev adını daşıyan mərkəzlərə gedişi təşkil edilmiş, müxtəlif idman yarışları keçirilmişdir.

Uşaq Gənclər İdman və UGİŞM-nin idmançıları da bununla bağlı respublikada keçirilən tədbirlərdə fəal iştirak etmişdir. Şahmatçılarımız Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Naxçıvanda keçirilən Beynəlxaq Şahmat turnirində fəal iştirak etmiş və fəxri fərmanla təltif olunmuşlar. Zaqatalada keçirilən şahmat olimpiadasında komandamız 66 iştirakçı arasında III yeri tutmuşdur. Şahmatçılarımız İranda və Gürcüstanda keçirilən beynəlxalq yarışlarda iştirak etmiş, Əhmədli Həsən Əhməd oğlu 4-cü yeri tutmuşdur. 7 nömrəli tam orta məktəbin məzunu Kərimov Özcan Vidadi oğlu ulu öndərin adına boks üzrə keçirilən Qran-pri turnirinin final yarışında yalnız rusiyalı idmançıya uduzaraq 2-ci yeri tutmuş, həmin məktəbin 8-ci sinif şagirdi Ozcanın qardaşı Kərimov Elvin Vidadi oğlu isə "Yunan-Roma" güləş növü üzrə yeniyetmələrdən ibarət Azərbaycanın yığma komandasının tərkibinə daxil edilmişdir.

Oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 92-ci ildönümü münasibətilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən keçirilən "Qələbəyə doğru" intellektual oyunda məktəblilərimiz zona yarışında I və respublika yarışında VI yeri tutmuşlar.

2014-cü ildən başlayaraq il ərzində respublikada olduğu kimi, rayonda da tam orta məktəblərin XI sinif şagirdləri məktəblərin yerləşdiyi ərazilərdə yerli məktəblərin XI sinif şagirdləri ilə birlikdə Heydər Əliyev irsinin öyrənilməsi ilə əlaqədar təşkil olunmuş dərslərə cəlb edilmiş və bu iş müvəffəqiyyətlə başa çatdırılmışdır.

Hazırda məcburi köçkünlük həyatı yaşayan müəllimlərimizin qarşısında duran vəzifələrdən biri də şagirdlərə vətənpərvərlik tərbiyəsinin aşılanması olmuşdur. Bu vacib iş RTŞ-nin qarşısında pirioritet bir məsələ kimi durur. Hamıya məlumdur ki, 22 ilə yaxındır ki, rayonumuz işğal olunub və bu gün burada dünyaya göz açan insanların heç biri rayonu görməmişlər, ona görə də biz müəllimlərin ən mühüm vəzifəsi işğal olunmuş ərazilərin, Qarabağın və rayonumuzun tarixi, mədəniyyəti, fauna və florası haqqında şagirdlərə ətraflı məlumat verməkdir. Şəxsən rayon icra hakimiyyətinin başçısı Ramiz Həsənovun rəhbərliyi altında bu istiqamətdə məktəblərimizdə müxtəlif tədbirlər həyata keçirilmişdir.

Belə ki, rayonumuzun şəhər, qəsəbə və kəndlərinin adlarından və onun qısaca tarixindən bəhs edən guşələr hazırlanıb məktəblərə paylanmış, Zəngilan ziyalılarının, Qarabağ döyüşçülərinin məktəblərdə şagirdlərlə görüşləri təşkil edilmiş, rayonun bütün ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında "Mənim doğma Zəngilanım" mövzusunda inşa yazı müsabiqəsi keçirilmiş, qaliblər mükafatlandırılmışlar.

2014-cü ildə Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun təşəbbüsü və rəhbərliyi ilə məcburi köçkün rayonlarının icra başçıları, Müdafiə və Təhsil nazirliklərinin nümayəndələri, Təhsil şöbələrinin müdirləri, hərbiçilər və ali hərbi məktəblərə qəbul olmaq istəyən məzunlarla keçirdiyi müşavirədə Ə.Həsənov məcburi köçkün məktəblərini bitirən məzunların ali hərbi məktəblərə qəbul olunmalarının təxirəsalınmaz bir vəzifə olduğunu vurğulamışdır. O bildirmişdir ki, 20% torpaqlarımızın işğal altında olduğu bir dövrdə və hərbi texnikanın yeni nailiyyətləri ilə silahlanmış bir orduya ən savadlı, qəbul imtahanlarında yüksək bal toplayan məzunlar lazımdır. Rayonumuzun hər bir pedaqoji işçisi bu tövsiyəni dövrün aparıcı devizi kimi qəbul etmiş və məzunların bu istiqamətdə yönəldilməsinə səy göstərmişlər. 2 nəfər məzunumuz ali hərbi məktəblərə, 3 nəfər C.Naxçıvanski adına Hərbi Liseyə, 2 nəfər isə Fövqəladə Hallar və Milli Təhlükəsizlik akademiyalarına daxil olmuşdur. Respublikada keçirilən hərbi-idman oyunlarında rayonumuzun komandası müvafiq yer tutmuşdur.

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin "Vətənin müdafiəsinə hazıram" rəsm müsabiqəsində məktəblilərimiz fəal iştirak etmişlər. Belə ki, müsabiqənin yekununda 5, 6 və 28 nömrəli tam orta məktəblərin şagirdləri daha yüksək nəticə əldə etmişlər. Onların rəsm əsərləri Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nəşr etdirdiyi "Vətənin müdafiəsinə hazıram" kitabına salınmışdır.

Ötən tədris ilində məktəblərdə bir sıra silsilə tədbirlər həyata keçirilmişdir.

Belə ki, rayonun 33 nömrəli tam orta məktəbinin şagirdləri təhsil naziri Mikayıl Cabbarovun əmri ilə ümumtəhsil məktəblərində keçirilən "Nə? Harada? Nə zaman?" intellektual oyunlarında fəal iştirak etmişlər. Həmin məktəbin şagirdləri, eyni zamanda "Şahin" hərbi-oyunlarında rayonumuzu təmsil etmişlər.

Müəllimi cəmiyyətdə, təhsildə əsas sima, nüfuzlu şəxs hesab edən Azərbaycan dövləti müəllim əməyinə həmişə yüksək qiymət vermişdir. Təkcə son beş ildə 1000-dən artıq təhsil işçisi Prezidentin sərəncamı ilə dövlət təltiflərinə layiq görülmüşdür ki, onlardan da 8 nəfəri bizim rayonun payına düşür. Onu da qeyd edim ki, ölkə Prezidenti cənab İlham Əliyevin 2 oktyabr 2015-ci il tarixli təhsil işçilərinə "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında sərəncamına əsasən rayonumuzun 29 saylı məktəbinin direktoru Məhəmməd Məmmədov bu fəxri ada layiq görülüb.

Son dövrlərdə respulikamızda, o cümlədən məktəblərdə kitabxana işinə diqqət xeyli artırılmış, elm mənbəyi olan kitaba münasibət xeyli dəyişmişdir. Kitabxanalar klassik və müasir ədəbi nüsxələrlə zənginləşdirilmişdir. Kitabların alınması, paylanması və saxlanması işinə nəzarət Təhsil Nazirliyi tərəfindən gücləndirilmişdir. Məktəbdə kitabların saxlanması və mühafizə edilməsi sahəsində həqiqətən ciddi dönüş yaradılmış, kitabların qorunması üçün sinif rəhbərləri, valideyinlər və şagirdlər arasında geniş təbliğat işi aparılmışdır. Nəticədə kitabların vaxtından əvvəl sıradan çıxmasının qarşısı alınmışdır.

Bəşəriyyətin söz sənəti xəzinəsinə incilər bəxş etmiş Azərbaycan ədəbiyyatının, habelə dünya ədəbiyyatının seçmə nümunələrini mütaliə etmək hər bir şəxs üçün əsas həyat məktəbidir. Mütaliə məktəblilərin dünyagörüşünün formalaşmasında ən mühüm amillərdən biridir. Bununla əlaqədar "Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə" təhsil naziri Mikayıl Cabbarov tərəfindən 16 dekabr 2014-cü tarixdə əmr imzalanmışdır. Əmrlə əlaqədar direktorların, onların təşkilat üzrə müavinlərinin, habelə kitabxanaçıların yığıncağı keçirilmiş, onlara lazımi tövsiyələr verilmişdir.

Müasir məktəbli sivil bir dünyada yaşayır. Müstəqil bir ölkənin vətəndaşıdır, həm də geniş dünyagörüşə və mühakimə qabiliyyətinə malikdir.

Buna görə də ənənəvi pedaqoji tərəf və meyar, indi məktəb və müəllim qarşısında daha qətiyyətlə qoyulur. Bu da ilk növbədə müəllim və şagird kollektivi arasında birlik, səmimiyyət, qarşılıqlı ehtiram və tələbkarlıq, işgüzar əhval-ruhiyyə yaratmağa səy göstərməkdən ibarətdir.

Müasir dövrdə informasiya və kommunikasiya texnologiyalarının istisnasız olaraq hər bir sahəyə nüfuz etməsi dünyanı nəhəng informasiya məkanına çevirmişdir. Tədqiqatlar göstərir ki, İKT sahəsində savadlılığın dövlətə verdiyi fayda istənilən sənaye yeniliyinin səmərəsindən bir neçə dəfə çoxdur. Bu istiqamətdə də məktəblərimizdə müəyyən işlər görülmüşdür. Hazırda kompüterlərin sayı 280-ə çatmış, onlardan 243 ədədi məktəblərə, 20-si Təhsil Şöbəsinə, 18 ədədi isə məktəbdənkənar müəssisələrə verilmişdir. 4, 7, 16, 23, 26, 28, 29, 33, 34, 36 nömrəli tam orta məktəblərdə bu iş daha yaxşı təşkil edilmiş, kompüter sinifləri yaradılmışdır. Hazırda rayonun ümumtəhsil məktəblərində hər 18,5 şagirdə bir kompüter düşür.

Ötən dərs ilində məktəblərin maddi-texniki bazasının yaxşılaşdırılması və təmiri sahəsində xeyli işlər görülmüşdür.

Belə ki, məktəblərin inventar və avadanlığa olan tələbatı minimum səviyyədə ödənilmiş, əlavə olaraq məktəblərin bəziləri kompüterlər və təlimin texniki vasitələrilə təmin edilmiş, 1, 14 və 20 nömrəli tam orta məktəblərdə cari, 4 nömrəli tam orta məktəbdə isə əsaslı təmir işləri, qalan bütün məktəblərdə isə daxili imkanlar hesabına təmir işləri aparılmışdır. 4 məktəbə rabitə xətti çəkilmiş və internet şəbəkəsinə qoşulmuşdur.

2015-2016-cı dərs ilində Təhsil Nazirliyi tərəfindən rayon məktəblərinə ayrılmış 64 adda 12387 ədəd dərslik və müəllim üçün vəsait, sinif jurnalları və digər kargüzarlıq sənədləri, icra hakimiyyəti tərəfindən verilmiş 650 dəst məktəbli geyimi vaxtında məktəblərə paylanmışdır.

Yeni dərs ilində qarşıda duran əsas vəzifələr təlim-tərbiyə sahəsində yüksək naliyyətlər əldə etmək, pedaqoji kollektivlərdə işgüzar şərait yaratmaq, isdedalı şagirdlərlə işləmək bacarığı əldə etmək, fənn olimpiadalarının respublika turunda bütün fənlərdən şagirdlərin iştirakını təmin etmək, tarixi günlərin milli ruhda keçirilməsini təşkil etmək, şagirdlərdə milli və bəşəri hissləri aşılamaq üçün ideya-siyasi tərbiyə işini yüksəltmək, vahid məktəbli formasına keçilməsi işini təşkil etmək, milli kurrikullumla bağlı işlərin həyata keçirilməsi, maddi-texniki bazanın yaxşılaşdırılması, İKT proqramının həyata keçirilməsi, habelə, müstəqil Azərbaycan Respublikası üçün bilikli, bacarıqlı gənclərin yetişdirilməsindən ibarətdir.

**Zakir İBRAHİMOV,**
**Zəngilan Rayon Təhsil Şöbəsinin müdiri.**